ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 9

Ad________________ Soyad________________

* İmtahan müddəti 180 dəqiqədir.
* Hər səhv cavab öz dəyərinin ¼ - ni aparır.
* Hər sual 4 bal ilə qiymətləndirilir.
* Nəzarətçilərə cavab kartları və buraxılış vərəqələri təqdim olunur.
* Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn,bölmə,sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
* Rayon (şəhər) mərhələsinin nəticələrini 05.01.2023-cü il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!
25.12.2022

TheBilikTeam1

T.me/BirlikTeam1

**1. Sxemdə verilmiş II, IV və VI rəqəmləri ilə göstərilmiş enliklərdə yağıntıların çox düşmə səbəbini müəyyən edin.**




A) Keçid iqlimi qurşağında yerləşmələri
B) Yüksək təzyiq qurşağında yerləşmələri
C) Alçaq təzyiq qurşağında yerləşmələri
D) Enən hava axınlarının mövcud olması
E) Termik təzyiq qurşaqlarında yerləşmələri

**2. Coğrafiya müəllimi dərs zamanı şagirdlərinə yaşadıqları şəhər ilə Oğuz şəhəri arasında yerli vaxt fərqinin daha az, Hacıqabul şəhəri arasındakı fərqin isə daha çox olduğunu söyləyir. Onlar hansı şəhərdə yaşayırlar?**

A) Ağdaş B) Qobustan C) Siyəzən
D) Salyan E) Xızı

**3. Hansı məntəqədə $1m^3$ havanın su buxarı ilə doyma həddi daha yüksəkdir.**

| Məntəqə | $1m^3$ havada mövcud olan faktiki su buxarının miqdarı | Nisbi rütubətlilik |
|---|---|---|
| 1 | 6 | 80% |
| 2 | 2,6 | 85% |
| 3 | 2 | 70% |
| 4 | 4,5 | 75% |
| 5 | 5 | 60% |

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**4**. *Çay dərəsinin formalaşmasında relyefin təsiri böyükdür. Dağ çayları yumşaq süxurlar üzərində axaraq dərin, ensiz və dik yamaclara malik dərələr əmələ gətirir.* **Mətndə hansı relyef formasından bəhs edildiyini müəyyən edin.**

A) Estuari B) Kanyon C) Delta
D) Astana E) Şəlalə

T.me/BirlikTeam1

**5. Cədvəldə verilən dağlardan hansıların yerlərini dəyişşək, onların mütləq hündürlüklərinin düzgün artma sırasını müəyyən etmək olar?**

| № | Dağlar |
|---|---|
| 1 | Karpat |
| 2 | Skandinaviya |
| 3 | Pireney |
| 4 | Alp |
| 5 | Qafqaz |

A) 1 və 2 B) 2 və 3 C) 3 və 5
D) 2 və 4 E) 4 və 5

**6. Həqiqi sahəsi 2268 km² olan meşənin xəritədə tutduğu ərazi paletkada göstərilmişdir. Bu xəritədə A və B məntəqələri arasındakı məsafənin 16 sm olduğunu nəzərə alaraq, həmin məntəqələr arasındakı həqiqi məsafəni hesablayın.**



A) 248 km B) 424 km C) 324 km
D) 115 km E) 288 km

**7. Xəritə-sxemə əsasən, Naxçıvan ərazisi üçün qışda və yayda müvafiq olaraq hakim küləklərin istiqamətini müəyyən edin.**




A) Cənub-qərb; qərb; B) Şimal-şərq; şərq;
C) Şərq; Şimal-şərq; D) Qərb; cənub-qərb;
E) Şimal-qərb; şərq;

**8. Hərəkət istiqamətləri eyni olan okean cərəyanları:**
A) Şimali Atlantik, Labrador, Norveç
B) Kurosio, Qolfstrim, Kanar
C) Bengel, Kanar, Kaliforniya
D) Braziliya, Şərqi Avstraliya, Mozambik
E) Peru, Anqola, Qərb küləkləri

**9. Bakı şəhərində 22 dekabr tarixində Günəşin çıxdığı vaxt şaquli cisimlərin kölgəsi hansı istiqaməti göstərər?**
A) şimal-qərb B) cənub-qərb
C) cənub-şərq D) şimal-şərq
E) şimal

T.me/BirlikTeam1

**10. Xəritə-sxemə əsasən, müəyyən etmək olar:**



A) dağların mütləq hündürlüyünü
B) tektonik qırılmaları
C) süxurların geoloji yaşını
D) ekzogen relyef formalarını
E) antropogen landşaftları

**11. Azərbaycanda təbii halda yayılmış iynəyarpaqlı ağac növlərini müəyyən edin.**
A) qarmaqvarı şam, saqqızağacı, söyüd, ardıc
B) cökə, fıstıq, saqqızağacı, ardıc
C) Eldar şamı, küknar, vələs, dəmirağac
D) söyüd, vələs, qovaq, qaraçöhrə
E) qaraçöhrə, qarmaqvarı şam, Eldar şamı, ardıc

**12. Asiyanın sosialist ölkələrini müəyyən edin.**
A) Yəmən, Kamboca, Banqladeş, Şri-Lanka
B) Tacikistan, Türkmənistan, Özbəkistan, Qırğızıstan
C) Suriya, Myanma, İraq, Monqolustan
D) Çin, KXDR, Vyetnam, Laos
E) Tailand, KXDR, Vyetnam, Filippin

**13. Şimalı Amerika materikində Kordilyer dağlarında yerləşən vulkanları müəyyən edin.**
A) Taxumulko, Orisaba, Montan-Pele
B) Momotombo, Şasta, Pinatubo
C) Kolima, Reynir, Popokatepetl
D) Kolima, Ruis, Şasta
E) Kotopaxi, Bardarbunqa, Ruapexu

**14. Avropaya aid olan yerli külələri müəyyən edin.**
A) baquyo, həbub
B) bora, sarma
C) vilivili, tayfun
D) sirokko, mistral
E) tornado, föhn

**15. Yarımsəhra və quru çöl iqlimində yerləşən şəhərləri müəyyən edin.**
A) Naxçıvan, Gəncə, Xaçmaz
B) Kürdəmir, Şirvan, Şamaxı
C) Şəmkir, Mingəçevir, Şəki
D) Lənkəran, Sumqayıt, Yevlax
E) Salyan, Ucar, Laçın

**16. Sxemə əsasən, alçaq təzyiq mərkəzlərini göstərin.**




A) yalnız I
B) II və III
C) III və IV
D) I və II
E) I və IV

t.me/BirlikTeam1

**17. Qalapaqos adaları rəqəmlərlə verilmiş hansı tavaların sərhədində yerləşir?**




A) 2 və 3 B) 1 və 3 C) 2 və 4
D) 4 və 5 E) 3 və 4

**18. Cədvələ əsasən, doğru sıraları müəyyən edin.**

| № | Kənar dənizlər | Adalararası dənizlər | Daxili dənizlər |
|---|---|---|---|
| 1 | Berinq | Fici | Qırmızı |
| 2 | Ueddell | Yava | Bofort |
| 3 | Karib | Baffin | Baltik |
| 4 | Şimal | Sulavesi | İrlandiya |
| 5 | Ross | Banda | Azov |
| 6 | Molukk | Çukot | Mərmərə |

A) 1, 2, 3 B) 1, 4, 5 C) 4, 5, 6
D) 1, 3, 5 E) 2, 3, 6

**19. Dünya okeanına çıxışı *olmayan* ölkələri müəyyən edin.**

A) Uqanda, Ruanda, Paraqvay, Sloveniya
B) Monqolustan, Nepal, Butan, Kamboca
C) Qazaxıstan, Boliviya, Laos, Mali
D) Burundi, İsveçrə, Qırğızıstan, Suriya
E) İsrail, Avstriya, Qambiya, Vyetnam

**20. *Kooperativləşmə* adlanır:**

A) İstehsalın təşkili formalarından biri olub hazır məhsulun istehsalında iştirak edən müəssisələr arasındakı əlaqə
B) İstehsalın təşkili formalarından biri olub texnoloji cəhətdən bir-biri ilə əlaqəli olan istehsal sahələrinin bir müəssisədə cəmlənməsi
C) İstehsalın və işçi qüvvəsinin kiçik müəssisələrdə cəmlənməsi
D) Ölkələrin sosial-iqtisadi, tarixi-siyasi əlaqə forması
E) Ölkələrin daxili tələbatdan daha çox məhsul istehsalı və xidmət göstərilməsi

**21. *2011-ci ilin mart ayında Yaponiya sahillərində hündürlüyü 35 m-ə çatan dəniz dalğaları sahil ərazilərdə dəhşətli dağıntılar və insan tələfatına səbəb olmuşdur.* Bu tip dalğaların yaranma səbəbləri ola bilər:**

A) daimi küləklər
B) qabarma və çəkilmələr
C) vulkan və zəlzələlər
D) qlobal istiləşmə
E) musson küləkləri

**22. Avrasiya materikində qərbdən şərqə doğru bütöv zolaq əmələ gətirməyən iqlim qurşaqları:**

A) subekvatorial və subtropik
B) subtropik və tropik
C) mülayim və subarktik
D) ekvatorial və subtropik
E) tropik və subekvatorial

t.me/BirlikTeam1

**23. Şirvan düzünün çaylarını qərbdən şərqə doğru sıralayın.**

1. Əlicançay
2. Girdimançay
3. Türyançay
4. Ağsu
5. Göyçay

A) 1, 3, 2, 5, 4
B) 1, 3, 5, 2, 4
C) 3, 1, 2, 5, 4
D) 3, 1, 5, 4, 2
E) 1, 2, 3, 4, 5

**24. Monarxiya ölkələrini müəyyən edin.**

A) Yaponiya, Böyük Britaniya, Norveç, Livan
B) Səudiyyə Ərəbistanı, BƏƏ, Bruney, Misir
C) Vatikan, Belçika, Mərakeş, İsveç
D) Liviya, Əlcəzair, İran, Pakistan
E) Nigeriya, Bruney, Böyük Britaniya, Mərakeş

**25. Sahəvi təşkilat hansıdır?**

A) Avropa İttifaqı (Aİ)
B) MDB
C) GUAM
D) ASEAN
E) OPEK

t.me/BirlikTeam1

T.me/BirlikTeam1

T.me/BirlikTeam1

T.me/BirlikTeam1

T.me/BirlikTeam1

T.me/BirlikTeam1